| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | EDU 302, Kurikulum və qiymətləndirmə strategiyaları, 6 AKTS |
| | **Departament** | Təhsil |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2025/26-cı tədris ilinin yaz semestri |
| | **Fənni tədris edən müəllim (lər)** | Hüseynova Səlimə |
| | **E-mail:** | salima.huseynova@khazar.org |
| | **Telefon:** | - |
| | **Mühazirə otağı/Cədvəl** | Nərimanov korpusu |
| | **Məsləhət saatları** | Tələbələrlə razılaşdırılan vaxtlarda |
| **Prerekvizitlər** | EDU101 | |
| **Tədris dili** | Azərbaycan | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Əsas dərsliklər:**<br>1. Abbasov, Ə. (2008). Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri. *Kurikulum*, (1), 1–12.<br>2. Azərbaycan Respublikasının Təhsil Qanunu. (2009). Bakı, Azərbaycan.<br>3. Azərbaycan Respublikası. (2013). *Ümumtəhsil məktəbləri üçün fənn kurikulumları (I–XI siniflər)*. Bakı: Azərbaycan Respublikası Təhsil Nazirliyi.<br>4. Azərbaycan Respublikası. (2025). *Ümumi Təhsil Müəssisələri üçün Azərbaycan Dili fənni üzrə təhsil proqramı (kurikulum) (I–XI siniflər)*. Bakı: Azərbaycan Respublikası Təhsil Nazirliyi.<br>5. Azərbaycan Respublikası. (2025). *Ümumi Təhsil Müəssisələri üçün Ədəbiyyat fənni üzrə təhsil proqramı (kurikulum) (V–XI siniflər)*. Bakı: Azərbaycan Respublikası Təhsil Nazirliyi.<br>6. Azərbaycan Respublikası. (2006). *Ümumi təhsilin konsepsiyası (Milli kurikulum)*. Bakı: Azərbaycan Respublikası Təhsil Nazirliyi.<br>7. Azərbaycan Respublikası. (2009). *Ümumi təhsil sistemində qiymətləndirmə konsepsiyası*. Bakı: Azərbaycan Respublikası Təhsil Nazirliyi.<br>8. Azərbaycan Respublikasının Prezidenti. (2013, 24 oktyabr). *Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası-nın təsdiq edilməsi barədə Sərəncam*. Bakı, Azərbaycan.<br>9. Əliyev, R. (2024). Təlimdə əksəlaqənin yaradılmasının pedaqoji-psixoloji əsasları. *Azərbaycan Məktəbi*, 3(708), 84–90.<br>10. Kurikulum bələdçisi: İzahlar və tətbiqlər. (2019). Bakı: Elm və Təhsil.<br>**Əlavə vəsaitlər:**<br>1. Abbaslı, L. (2023). *Təhsildə qiymətləndirmə*. Bakı: Elm və Təhsil. | |

| | |
|---|---|
| | https://www.preslib.az<br>2. Azərbaycan Respublikasının Təhsil İnstitutu. (2024). *Formativ qiymətləndirmə: Metodik vəsait*. Bakı: ARTİ.<br>3. UNESCO. (2016). *Curriculum development and review*. Paris: UNESCO.<br>4. OECD. (2005). *Formative Assessment: Improving Learning in Secondary Classrooms*. Paris: OECD Publishing.<br>5. OECD. (2020). *Education in the Digital Age: Formative Assessment Practices*.<br>6. https://mathematicaltasks.weebly.com/cognitive-demand-defined.html<br>7. http://www.nationalforum.com/ |
| **Kursun təsviri** | "Kurikulum və qiymətləndirmə strategiyaları" fənni müəllimlik ixtisası üzrə təhsil alan tələbələrdə təhsil proqramlarının planlaşdırılması və qiymətləndirilməsi sahəsində əsas nəzəri bilik və praktik bacarıqların formalaşdırılmasına yönəlib. Kursda kurikulumun mahiyyəti və strukturu, təlim nəticələrinin müəyyənləşdirilməsi, tədris prosesinin planlaşdırılması, eləcə də formativ və summativ qiymətləndirmə strategiyalarının tətbiqi üzrə müasir yanaşmalar öyrənilir və tələbələrin şagirdmərkəzli, nəticəyönümlü tədris prosesini planlaşdırmaq və qiymətləndirmək sahəsində səriştələrinin formalaşması hədəflənir. |
| **Kursun məqsədləri** | • Kurikulumun mahiyyəti, strukturu və tətbiqi ilə bağlı tələbələrdə sistemli nəzəri bilik formalaşdırmaq;<br>• Təlim nəticələrinə əsaslanan planlaşdırma və müasir qiymətləndirmə strategiyalarının tətbiqi üzrə praktik bacarıqları inkişaf etdirmək;<br>• Formativ və summativ qiymətləndirmə üsullarından məqsədyönlü istifadə etmək bacarığını aşılamaq;<br>• Peşəkar müəllimlərin hazırlanmasına nəzəri və praktiki töhfə vermək;<br>• Müasir təhsil yanaşmalarını uğurla həyata keçirə bilən müəllimlər yetişdirmək;<br>• Ümumi təhsilin keyfiyyətinin yüksəldilməsinə töhfə verə bilən yaradıcı, liderlik və tədqiqat bacarıqlarına malik pedaqoji kadrların formalaşmasına dəstək olmaq. |
| **Tədrisin (öyrənmənin) nəticələri** | Tədrisin sonunda tələbələr:<br>1. Kurikulumların mahiyyətini, strukturu və əsas komponentlərini **izah edir**;<br>2. Kurikulumların hazırlanmasının fəlsəfi, psixoloji və elmi əsaslarını **təsnif edir**;<br>3. Komponentlər arasındakı əlaqələri və məzmun standartlarının hazırlanmasının prinsiplərini **şərh edir**;<br>4. Müxtəlif kurikulum hazırlanma yanaşmalarını **müqayisə edir**;<br>5. Azərbaycanda tətbiq edilən ümumi təhsil proqramının modelini **təsvir edir**; |

<table>
<tr><td></td><td colspan="3">6. İllik, gündəlik və inteqrativ planları, təlim prosesinin planlaşdırılmasına dair sənədləri hazırlayır;<br>7. Təlim strategiyalarının və müəllim tərəfindən istifadə olunan üsul və formaların məqsədəuyğunluğunu qiymətləndirir;<br>8. Formativ, summativ və alternativ qiymətləndirmə üsullarını tətbiq edir;<br>9. Qiymətləndirmə vasitələri və rubrikləri hazırlayır, onların üstünlüklərini və məhdudiyyətlərini izah edir;<br>10. Beynəlxalq qiymətləndirmələrin əhəmiyyətini və nəticələrini tədris prosesinin təkmilləşdirilməsində analiz edir.<br>11. Məqsədə uyğun təlim üsul və formalarını seçir;<br>12. İcmal nümunəsi hazırlayır.</td></tr>
<tr><td rowspan="4">Tədris metodları</td><td>Məşğələ</td><td colspan="2">+</td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td colspan="2">+</td></tr>
<tr><td>Praktiki tapşırıqlar</td><td colspan="2">+</td></tr>
<tr><td>Praktiki məsələnin təhlili</td><td colspan="2">+</td></tr>
<tr><td rowspan="8">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%)</td></tr>
<tr><td>Layihə</td><td></td><td>10</td></tr>
<tr><td>Davamiyyət</td><td>Semestr müddəti</td><td>5</td></tr>
<tr><td>Aktivlik</td><td>Semestr müddəti</td><td>5</td></tr>
<tr><td>Praktiki tapşırıqlar</td><td>Semestr müddəti</td><td>10</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td>Aprel 2026</td><td>30</td></tr>
<tr><td>Final imtahanı</td><td>İyun 2026</td><td>40</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100</td></tr>
<tr><td>Qaydalar<br>(Tədris siyasəti və davranış)</td><td colspan="3">Tələbə praktiki dərslərdə fəaliyyətini fərdi, cütlük və qrup şəklində həyata keçirir. Məqsəd tələbənin gələcək pedoqoji fəaliyyətində şagirdlərin öyrənmə imkanlarını nəzərə alaraq dərsi planlaşdırmaq və tətbiq etmək bacarığını inkişaf etdirmək, həmçinin dövlət təhsil normalarını bilmək və praktikada tətbiq etməkdir.<br><br>İllik layihə(10 bal)<br>İlin sonunda tələbələr ixtisaslarına uyğun bir dərs mövzusunu seçir və həmin dərs üçün nümunəvi dərs planı hazırlayırlar. Layihə çərçivəsində tələbələr dərsin məqsəd və nəticələrini müəyyənləşdirir, dərs məzmununu təşkil edir, istifadə olunacaq tədris üsul və vasitələrini seçir və dərs icmalını elmi əsaslarla yazırlar. Layihənin məqsədi tələbələrin təhsil proqramlarının hazırlanması, planlaşdırılması və tətbiqi bacarıqlarını praktik şəkildə inkişaf etdirmək, həmçinin gələcək pedoqoji fəaliyyət üçün peşəkar səriştələrini formalaşdırmaqdır.<br>Aktivlik (5 bal)<br>Tələbə dərs zamanı fəaliyyətini fərdi, cütlük və qrup şəklində göstərir. Bu fəaliyyətə müzakirələrdə iştirak, fikir mübadiləsi, sual-cavab</td></tr>
</table>

**sessiyaları və qrup tapşırıqlarının yerinə yetirilməsi** daxildir. Məqsəd tələbələrin dərs prosesində aktiv iştirakını təmin etmək, həmkarları ilə əməkdaşlıq bacarığını inkişaf etdirmək və tədris mövzusunu dərinləşdirməkdir.

**Davamiyyət (5 bal)**

Tələbənin dərsə davamiyyəti izlənilir və qiymətləndirilir. Dərsə 10 dəqiqə gecikən tələbəyə qaib yazılır. Qaib yazılmış olsa belə, onların dərsdə iştirakına icazə veriləcək.

**Praktiki tapşırıqlar (10 bal)**

Praktiki tapşırıqlar fənn üzrə hər mövzuya uyğun olaraq tələbələrə verilən ev tapşırıqlarını, eləcə də yerli və xarici ədəbiyyatlar əsasında aparılan müxtəlif araşdırmaları əhatə edir. Bu tapşırıqlar tələbələrin kurikulumun planlaşdırılması, təlim strategiyalarının seçilməsi və qiymətləndirmə üsullarının tətbiqi ilə bağlı nəzəri biliklərini praktik fəaliyyətlərdə tətbiq etmələrinə yönəlib. Praktiki tapşırıqlar tələbələrin mövzunu mənimsəmə səviyyəsini, analitik və tətbiqi bacarıqlarını, eləcə də müstəqil araşdırma aparmaq səriştələrini inkişaf etdirməyə xidmət edir.

**İmtahanlar**

Aralıq imtahanı aprel ayında tədris olunan mövzular üzrə, final imtahanı iyun ayında tədris olunan mövzular əsasında keçiriləcəkdir.Tələbənin imtahanda iştirakı və ya imtahana buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur.

**Fənni bitirmək qaydası**

Universitetin qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60% və daha yuxarı hesab edilir. Kəsri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.

**İmtahan qaydalarının pozuntuları**

Aralıq və yekun imtahanları vaxtı tələbə tərəfindən imtahanın gedişini pozmaq və köçürmələr qadağandır. Bu qaydaya əməl etməyən tələbənin imtahan işi ləğv olunur və tələbə 0 (sıfır) qiymət ilə imtahandan kənarlaşdırılır.

**Tələbənin davranış qaydaları**

Dərs zamanı dərs prosesini pozmağa və ya qeyri-etik hərəkətlər etməyə, həmçinin tələbələrin icazəsiz müzakirələrinə və mobil telefondan istifadəsinə icazə verilmir.

**Cədvəl (dəyişdirilə bilər)**

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|
| 1. | | Tələbələrlə tanışlıq. Özünü təqdimetmə. Təlim boyu müzakirə ediləcək mövzular haqqında məlumat.<br>Təhsilin mahiyyəti və kurikulumun konseptual əsasları. | -*Kurikulum bələdçisi (izah və tətbiqlər)*. Bakı: Elm və Təhsil, 2019,Səh 11-26<br>-“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. 2009 |

| | | | |
|---|---|---|---|
| | | | “Müasir müəllim üçün kompetensiya əsaslı kurikulum nə üçün vacibdir?” mövzusunda **müzakirə.** |
| 2. | | Təhsil proqramlarının hazırlanmasının ictimai və fəlsəfi əsasları. | Abdullayev A.Təhsilin əsasları: Təhsi fəlsəfəsi və təlim prosesi Azərbaycan müəllimi.- 2010.- 28 may.- S.20.<br>Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu). Bakı, 2006<br>**Qrup işi.**<br>“Təhsil mühiti” və “Təlim mühiti” anlayışlarını müxtəlif təhsil fəlsəfələri baxımından təhlil edib,oxşar və fərqli cəhətləri müəyyənləşdirmək.<br>**Praktiki tapşırıq.**<br>“Mənim təhsil fəlsəfəm nədir?" mövzusunda araşdırma. |
| 3. | | Təhsil proqramlarının hazırlanmasının psixopedaqoji əsasları | *Kurikulum bələdçisi (izahlar və tətbiqlər*), Kitab , Bakı, “Elm və təhsil”, 2019, 320 səh **Səh 221-271**<br>**Qrup işi.**<br>Psixopedaqoji nəzəriyyələrin **“öyrənmə anlayışı, müəllimin rolu, dərsə hazırlığa təsiri”** anlayışları üzrə müqayisəli təhlili.<br>**Praktiki tapşırıq.**<br>Psixopedaqoji nəzəriyyələrin əsas xüsusiyyətlərini qeyd edin. |
| 4. | | Təhsil proqramlarının ( kurikulumları) növləri milli, fənn və məktəb kurikulumlarını xüsusiyyətləri. | -*Kurikulum bələdçisi (izahlar və tətbiqlər),* Kitab , Bakı, “Elm və təhsil”, 2019, 320 səh, səh 150-167.<br>-Azərbaycan Respublikasının ümumi təhsil müəssisələri üçün Azərbaycan dili fənni üzrə Təhsil Proqramı (Kurikulum) (I-XI Siniflər)2025 |

| | | | |
|---|---|---|---|
| | | | -Azərbaycan Respublikasının ümumi təhsil müəssisələri üçün Ədəbiyyat fənni üzrə Təhsil Proqramı (Kurikulum) (V-XI Siniflər) 2025<br>**Praktiki tapşırıq.**<br>İxtisasa uyğun olan ümumtəhsil məktəbləri üçün fənn kurikulumlarını təhlil edib,mahiyyətini izah etmək. |
| 5. | | Təhsil proqramlarının məqsədləri; təlim nəticələrinin, məzmunun standartların və bacarıqların müəyyən edilməsi. | -*Kurikulum bələdçisi (izahlar və tətbiqlər),* Kitab , Bakı, "Elm və təhsil", 2019, 320səh.<br>**Səh 120-136, 177-181.**<br>Azərbaycan Respublikasının ümumi təhsil müəssisələri üçün Azərbaycan dili fənni üzrə Təhsil Proqramı (Kurikulum) (I-XI Siniflər)2025<br>-Azərbaycan Respublikasının ümumi təhsil müəssisələri üçün Ədəbiyyat fənni üzrə Təhsil Proqramı (Kurikulum) (V-XI Siniflər) 2025<br>**Qrup işi.**<br>Müvafiq fənn kurikulumundan istifadə etməklə təlim nəticəsi yazmaq, məzmunu təşkil edən biliklərin növləri və fəaliyyətlərin taksonomik təhlil etmək. |
| 6. | | Təhsil proqramlarında təlim nəticələrinin, standartların bilik və fəaliyyət komponentləri və onların təhlili, məzmunu təşkil edən biliklərin növləri və fəaliyyətlərin taksonomik təhlili. | -*Kurikulum bələdçisi (izahlar və tətbiqlər),* Kitab , Bakı, "Elm və təhsil", 2019, 320səh.<br>**Səh 177-181.**<br>Azərbaycan Respublikasının ümumi təhsil müəssisələri üçün Azərbaycan dili fənni üzrə Təhsil Proqramı (Kurikulum) (I-XI Siniflər)2025<br>-Azərbaycan Respublikasının ümumi təhsil müəssisələri üçün Ədəbiyyat fənni üzrə Təhsil Proqramı (Kurikulum) (V-XI Siniflər) 2025 |

| | | | |
|---|---|---|---|
| | | | **Praktiki tapşırıq.** İxtisasınıza uyğun olan ümumtəhsil məktəbləri üçün fənn kurikulumlarından bir sinif üçün nəzərdə tutulan təlim nəticələrini və məzmun standartlarını təhlil edib təlim nəticələrində və məzmun standartlarında nəzərdə tutulan biliklərlə bağlı qeydlər götürmək. |
| **Aralıq imtahanı** | | | |
| 7. | | Təlim strategiyaları. Təlimin təşkili prinsipləri. Təlim metodları və texnikaları, təlim formaları. | Azərbaycan Respublikasının ümumi təhsil müəssisələri üçün Azərbaycan dili fənni üzrə Təhsil Proqramı (Kurikulum) (I-XI Siniflər)2025<br>-Azərbaycan Respublikasının ümumi təhsil müəssisələri üçün Ədəbiyyat fənni üzrə Təhsil Proqramı (Kurikulum) (V-XI Siniflər) 2025<br>-Kurikulum bələdçisi (izahlar və tətbiqlər), Kitab , Bakı, “Elm və təhsil”, 2019, 320 səh<br>**Səhifə 181-193**<br>**Qrup müzakirəsi.**<br>Ümumtəhsil məktəbləri üçün fənn kurikulumları sənədindən **“Təlim strategiyaları və təlimin təşkilinə verilən tələblər”** bölməsinin təhlili və müzakirəsi. |
| 8. | | Planlaşdırma növləri: İllik planlaşdırmanın əsas xüsusiyyətləri. | Azərbaycan Respublikasının ümumi təhsil müəssisələri üçün Azərbaycan dili fənni üzrə Təhsil Proqramı (Kurikulum) (I-XI Siniflər)2025<br>-Azərbaycan Respublikasının ümumi təhsil müəssisələri üçün Ədəbiyyat fənni üzrə Təhsil Proqramı (Kurikulum) (V-XI Siniflər) 2025<br>**Praktiki tapşırıq.** |

| | | | |
|---|---|---|---|
| | | | İxtisasınıza uyğun olan ümumtəhsil məktəbləri üçün fənn kitabından uyğun bir bölmə seçib, bir həftəni əhatə edən illik plan nümunəsi hazırlamaq. |
| 9. | | Planlaşdırma növləri: Cari planlaşdırmanın əsas xüsusiyyyətləri, fəal dərsin mərhələləri. | Kurikulum bələdçisi (izahlar və tətbiqlər), Kitab , Bakı, "Elm və təhsil", 2019, 320 səh<br>**Səh 107-114**<br>**Cütlərlə iş.**<br>İxtisasınıza uyğun fənnin metodik vəsaitindən bir mövzunun gündəlik planlaşdırma nümunəsini analiz etmək.<br>**Praktiki tapşırıq.**<br>İxtisasınıza uyğun olan ümumtəhsil məktəbləri üçün fənn kitabından uyğun bir mövzu seçib, gündəlik planlaşdırma nümunəsi hazırlamaq. |
| 10. | | Qiymətləndirmə konsepsiyası. Qiymətləndirmənin mahiyyəti, xarakteri,növləri (beynəlxalq, milli, məktəbdaxili ). | Kurikulum bələdçisi (izahlar və tətbiqlər), Kitab , Bakı, "Elm və təhsil", 2019, 320 səh<br>**Səh 273-277**<br>-Azərbaycan Respublikasının ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası https://e-qanun.az/framework/16061<br>**Qrup müzakirəsi**<br>Verilmiş nümunələrin qiymətləndirmənin hansı növünə aid olduğunu müəyyənləşdirmək.<br>**Praktiki tapşırıq.**<br>Qeyd olunan linkdən "Qiymətləndirmə Konsepsiyası" sənədindən istənilən bölməni təhlil edib, həmin bölmənin mahiyyətini izah etmək. |

| | | | |
|---|---|---|---|
| 11. | | Qiymətləndirmənin prinsipləri: etibarlılıq, releventlıq,<br>orjinallıq,praktikli,<br>dəyərləndirmə, məqsədəuyğunluq. | Kurikulum bələdçisi (izahlar və tətbiqlər), Kitab , Bakı, “Elm və təhsil”, 2019, 320 səh<br>**Səh 281-284**<br>Azərbaycan Respublikasının ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası<br>https://e-qanun.az/framework/16061<br>**Praktiki tapşırıq.**<br>Qiymətləndirmə prinsiplərinin mahiyyətini nümunələrlə izah etmək. |
| 12. | | Məktəbdaxili qiymətləndirmənin növləri:Diaqnostik qiymətləndirmə, forma və vasitələr. | -Kurikulum bələdçisi (izahlar və tətbiqlər), Kitab , Bakı, “Elm və təhsil”, 2019, 320 səh<br>**Səh 284-286, 293-295**<br>-Azərbaycan Respublikasının ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası<br>https://e-qanun.az/framework/16061<br>**Praktiki tapşırıq.**<br>İxtisasınıza uyğun fənnə aid 1 diaqnostik qiymətləndirmə testi (vasitəsi) hazırlayın. |
| 13. | | Məktəbdaxili qiymətləndirmə:<br>Formativ qiymətləndirmə, forma və vasitələr. | -Kurikulum bələdçisi (izahlar və tətbiqlər), Kitab , Bakı, “Elm və təhsil”, 2019, 320 səh<br>**Səh 289-293**<br>-Azərbaycan Respublikası ümumtəhsil məktəbləri üçün fənn kurikulumları (I-XI siniflər), Bakı 2013<br>-Azərbaycan Respublikasının ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası<br>https://e-qanun.az/framework/16061<br>**Müzakirə.**<br>Formativ qiymətləndirmənin forma və vasitələrini təhlil edir. |
| 14. | | Məktəbdaxili qiymətləndirmə:Summativ qiymətləndirmə, forma və vasitələr. | -Kurikulum bələdçisi (izahlar və tətbiqlər), Kitab , Bakı, “Elm və təhsil”, 2019, 320 səh |

| | | | |
|---|---|---|---|
| | | | **Səh 286-289**<br>-Azərbaycan Respublikasının ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası https://e-qanun.az/framework/16061<br>**Qrup işi.**<br>Qruplar verilmiş qiymətləndirmə formasını aşağıdakı meyarlar üzrə təhlil edir:<br>• məqsədi<br>• ölçdüyü bilik və bacarıqlar<br>• istifadə edilən qiymətləndirmə vasitələri<br>• üstünlükləri və məhdudiyyətləri. |
| 15. | | Yekun layihə və təqdimat | |
| **Final imtahanı** | | | |